# AZƏRBAYCAN RESPUBLİKASININ
# AUDİTORLAR PALATASI ŞURASININ
# QƏRARI

Bakı şəhəri № 232/1 5 iyun 2012-ci il

Auditor xidmətinin aktual problemləri üzrə keçirilmiş sosioloji sorğunun nəticələrinin təhlili və hazırlanmış tövsiyələr barədə

Auditorlar Palatasının 2012-2014-cü illər üzrə iş planının və Palata Şurasının 2012-ci il üzrə iş planının - "Auditor xidmətinin aktual problemləri üzrə keçirilmiş sosioloji sorğunun nəticələrinin təhlili və tövsiyələrin hazırlanması barədə" 6.6-cı və 9-cu müvafiq bəndlərinin icrası ilə əlaqədar Auditin təşkili və təhlili idarəsi (M.Hacıyev) tərəfindən hazırlanmış "Auditor xidmətinin aktual problemləri üzrə keçirilmiş sosioloji sorğunun nəticələrinə dair təhlil və tövsiyələr barədə" məlumatı müzakirə edərək, Auditorlar Palatasının Şurası

## QƏRARA ALIR:

1. "Auditor xidmətinin aktual problemləri üzrə keçirilmiş sosioloji sorğunun nəticələrinə dair təhlil və tövsiyələr barədə" məlumat nəzərə alınsın (əlavə olunur).

2. Auditin təşkili və təhlil idarəsinə (M.Hacıyev) tapşırılsın ki, 10 (on) gün müddətində "Auditor xidmətinin aktual problemləri üzrə keçirilmiş sosioloji sorğu"nun nəticələri barədə materiallar və tövsiyələr dəqiqləşdirilərək hesabat hazırlanıb rəhbərliyə təqdim edilsin.

3. Kadr hazırlığı, xarici əlaqələr və nəşriyyat idarəsinə (S.Gülməmmədov) tapşırılsın ki, bir ay müddətində sorğu materiallarının təkmilləşdirilməsi barədə təkliflər hazırlanıb təqdim edilsin.

4. Auditorlar Palatası və onunla müvafiq əməkdaşlıq əlaqələri olan təşkilatlar tərəfindən Bakı, Gəncə, Lənkəran şəhərlərində və regionlarda 2012-ci ilin II yarımillində auditor xidmətinin aktual problemləri üzrə sosioloji sorğunun birgə keçirilməsi məqsədəmüvafiq hesab edilsin.

5. Aparatın rəhbəri Q.Bayramova tapşırılsın ki, "Auditor xidmətinin aktual problemləri üzrə keçirilmiş sosioloji sorğunun nəticələrinə dair təhlil və tövsiyələr barədə" hazırlanmış hesabatın Palatanın internet saytında yerləşdirilməsi təmin edilsin.

6. Bu qərarın icrasına nəzarətin həyata keçirilməsi Auditorlar Palatası sədrinin müavini F.İsmayılova həvalə edilsin.

**ŞURANIN SƏDRİ** **V.NOVRUZOV**